http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 14 (1589) 30 avqust 2014 - cü il Qiyməti 40 qəpik

## Prezident İlham Əliyev Bakıdakı 46 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Bakının Nəsimi rayonundakı 46 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.**

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq həyata keçirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq orta məktəblərin, ayrı-ayrı təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir, təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə ən müasir infrastruktur yaradılır. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 46 nömrəli tam orta məktəbin binası 1969-cu ildə inşa olunub. Dörd mərtəbədən, 65 sinif otağından ibarət məktəb 1560 şagird yerlikdir. Yeni dərs ili ərəfəsində məktəbin bütün sinif otaqları, ayrı-ayrı fənn kabinetləri əsaslı şəkildə təmir edilib, lazımi avadanlıq və ləvazimatla təchiz olunub. Məktəbdə vergilər mövzusunda dərslərin keçirilməsi üçün xüsusi kabinetlər də yaradılıb. Məktəbdə ən müasir havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Ətraf ərazilərdə abadlıq və quruculuq işləri həyata keçirilib.



Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarını gəzdi, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu.

## Bu sayımızda




Azərbaycanın Birinci Xanımı ad gününü qeyd edib 2




4-5

"Təbib" istirahət düşərgəsi universitetimizin sərvətidir

AMERIKALI QONAQLAR ATU-da 3

British University of Nicosia-nın rəhbərləri ilə görüş keçirilib 3

700 bal toplayan iki abituriyent Azərbaycan Tibb Universitetini seçib 7

ATU-nun nəzdində olan 5 saylı yataqxana təmirə bağlanıb 3

# Azərbaycanın Birinci Xanımı ad gününü qeyd edib

◆Avqustun 26-sı Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın ad günüdür.

Mehriban xanım Əliyeva Bakı şəhərində anadan olub. Azərbaycanın dəyərli ziyalısı, istedadlı yazıçı, akademik Mir Cəlal Paşayevin nəvəsi, Azərbaycan Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin qızıdır.

Mehriban xanım 1982-ci ildə Bakı şəhəri 23 N-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olub.

1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib.

1988-1992 illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-tədqiqat İnstitutunda işləyib.

1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hal-hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondu təsis olunub.

1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan – İrs" jurnalını təsis edib.

2002-ci ildə Mehriban Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirib. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya Çempionatının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.

Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Heydər Əliyev Fonduna rəhbərlik edir. 2004-cü il may ayının 10-da Heydər Əliyev Fondunun rəsmi açılışı olub.

2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva UNESSO-nun Xoşməramlı səfiri adına layiq görülüb.

2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib.

2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban Əliyeva "İlin qadını" adına layiq görülüb.

2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülüb.

2005-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb.

2005-ci il noyabrın 6-da Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Əzizbəyov ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 92.12% (23106 səs) səs toplayaraq deputat seçilib.



**Mehriban xanım 1982-ci ildə Bakı şəhəri 23 N-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olub.**

Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Mehriban Əliyevanı "2005-ci ilin adamı" elan edib.

Mehriban Əliyeva mədəni-mənəvi dəyərlərin qorunub saxlanmasına verdiyi töhfələrə görə 2006-cı ilin martında BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalına layiq görülüb.

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban Əliyeva 2006-cı il noyabrın 24-də ISESCO-nun Xoşməramlı səfiri adına layiq görülüb.

Dünya Səhiyyə Təşkilatı (DST) İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülüb.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Mehriban Əliyeva "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülüb.

Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 5 may tarixli sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Mükafatı ilə təltif edilib.

2009-cu il sentyabrın 14-də Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edilib.



2010-cu il fevralın 15-də Mehriban Əliyeva Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilib.

2010-cu il iyulun 30-da Mehriban Əliyevaya UNESSO-nun "Qızıl Motsart" medalı təqdim edilib.

2010-cu il noyabrın 7-də Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Xəzər ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 94,49% (31797 səs) səs toplayaraq deputat seçilib.

2011-ci il iyunun 24-də Mehriban Əliyevaya Krans Montana Forumunun Qızıl medalı, 2012-ci il iyunun 29-da isə "Prix de la Fondation" mükafatı təqdim edilib.

2012-ci il fevralın 13-də Mehriban Əliyeva Rusiya Federasiyasının İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adına layiq görülüb.

2012-ci il aprelin 13-də Mehriban Əliyevaya MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası (HƏŞ) və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) tərəfindən "Birlik Ulduzları" dövlətlərarası mükafatı təqdim edilib.

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının sədr müavini vəzifəsinə seçilib.

2013-cü il dekabrın 27-də Mehriban Əliyeva Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı – 2013" mükafatına layiq görülüb.

2014-cü ilin mayında Mehriban Əliyeva sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb.

Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə 2014-cü ilin iyununda Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub.

Bu günlərdə isə Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva İslam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Küveyt Dövlətinin Fəxri diplomu ilə təltif olunub.

Küveyt Dövlətinin Qadın Məsələləri üzrə Komitəsinin sədri Şeyxa Lətifə Əl-Fəhd Əl-Səlim Əl-Sabahın imzaladığı Fəxri diplomda Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya həyata keçirdiyi nəcib xeyriyyə və təbliğat fəaliyyətinə görə Küveyt qadınları adından dərin təşəkkür ifadə olunub və bu istiqamətdəki işlərində uğurlar arzu edilib.

Qeyd edək ki, bu, Küveyt qadınları adından xarici ictimai-siyasi xadimə verilən ilk mükafatdır.

Ad gününü qeyd edən Azərbaycanın birinci xanımının iki qızı, bir oğlu, üç nəvəsi var.

# AMERİKALI QONAQLAR ATU-da

**İyulun 17-də Oklahoma ştatı milli qvardiyasının komandanı, general-leytenant Mayls Dirinqin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub.**



Amerikalı qonaqları ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev qəbul edərək bu görüşdən məmnunluğunu dilə gətirib və onlara Azərbaycanın yeganə ali tibbi təhsil ocağı haqqında ətraflı məlumat verib. Azərbaycan Tibb Universitetinin xarici ölkələrlə, xüsusilə Türkiyə və Almaniya ilə əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan prorektor bundan sonra Amerika Birləşmiş Ştatlarının tibb müəssisələri ilə də ikitərəfli əlaqələrin yüksəldilməsini arzuladığını bildirib.



Nümayəndə heyətinin rəhbəri general-leytenant Mayls Dirinq də öz növbəsində səmimi qəbul üçün universitet rəhbərliyinə təşəkkürünü çatdırb və bu əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını deyib.

ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəhimə Qabulova Oklahoma Universiteti ilə təməli hələ 2010-cu ildə qoyulmuş əməkdaşlığın perspektivlərindən danışıb.

Görüş zamanı müzakirə edilən məsələlər arasında Oklahoma Universitetinin Tibb Elmi Mərkəzi (OU HSC) ilə əməkdaşlığın bərpası, mümkün əməkdaşlıq sahələrinin araşdırılması da olub.

İkitərəfli əlaqələrin genişləndirilməsi istiqamətində fikir mübadiləsinin aparıldığı görüşün sonunda iştirakçılara xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, Oklahoma Milli Qvardiyasının nümayəndə heyətinə Ştatla Tərəfdaşlıq Proqramının (SPP) direktoru, polkovnik-leytenant Rastin Uon, Birləşmiş Qərargahın (JFHQs) idarə rəisi, polkovnik-leytenant Çarlz Buz və ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələri daxil olub.

# ATU-nun nəzdində olan 5 saylı yataqxana təmirə bağlanıb

**Azərbaycan Tibb Universiteti öz tələbələrinin yaşama şəraitinin yaxşılaşdırılması üçün lazımi tədbirləri görür. Artıq 3 ildir ki, hər yay ATU-nun nəzdindəki yataqxanalardan biri təmir olunur. Bu il də Tibb Universitetinin 5 saylı yataqxanası təmirə bağlanıb.**



ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov bildirir ki, Tibb Universitetinin 6 yataqxanası olsa da, iki yataqxanamızda məcburi köçkünlər məskunlaşıb. Hazırda yataqxanalardan 4-ü tələbələrə xidmət göstərir. Bunlardan da ikisi qızlar, digər ikisi oğlanlar üçündür: "Ötən illərə nisbətən bu il yataqxanalara yerləşdirmə ilə bağlı müraciət edənlərin sayı xeyli artıb. Son günlər ərizədə daxil olan 50 ərizədən 10-u əlil, şəhid ailəsi övladlarıdır. İlk olaraq bu cür tələbələrin istəkləri nəzərdə tutulub. Daha sonra ötən il universitetə daxil olan və yataqxanaya yerləşdirilə bilməyənlər nəzərə alınacaq. Ümumilikdə, bu il yeni gələn tələbələrdən 50 nəfəri yataqxanaya yerləşdirə biləcəyik."

Qeyd edək ki, keçən əsrin 60-70-ci illərində tələbə yataqxanası kimi istifadə edilən 5 mərtəbəli bina hazırda tədris binası kimi istifadə edilir və bu bina «Latın dili korpusu» kimi tanınır.

ATU-nun tələbə yataqxanalarının tikintisinin əsası XX əsrin 30-cu illərində qoyulub. 1941-1945-ci illərdəki İkinci Dünya müharibəsi zamanı ATU-nun 1 və 2 saylı tələbə yataqxanalarından təhliyə hospitalı kimi istifadə edilib. Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə daha 4 müasir tipli yataqxana binası tikilərək tələbələrin ixtiyarına verilib. Son 10 ildə ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində yerli və xarici tələbələrin istifadə etdikləri bütün yataqxana binalarında əsaslı təmir işləri aparılıb, binalar ən yeni avadanlıqlarla təchiz edilib, tələbələrin rahatlığı üçün hər cür şərait yaradılıb.

# British University of Nicosia-nın rəhbərləri ilə görüş keçirilib

Avqustun 9-da Azərbaycan Tibb Universitetində (ATU) Şimali Kipr Türkiyə Cümhuriyyətindən olan qonaqlarla görüş keçirilib.

Görüşdə British University of Nicosia-nın rektoru Professor, dr. Cem Birol, Kiprin ən böyük xəstəxanasının baş həkimi dr. Ersan Berksel, ATU-nun beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Rəhimə Qabulova, ATU-nun ümumi işlər üzrə prorektoru Natiq Xəlilov, rektorun köməkçisi Rafiq Bayramov iştirak ediblər.

Görüş zamanı Natiq Xəlilov qonaqlara ATU-nun fəaliyyəti,



strukturu, klinikaları, tədrisin təşkili haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, hazırda universitetin 4 klinikası, 7 fakültəsi, 74 kafedrası mövcuddur. ATU-da 17 ölkədən olan 800-dən artıq əcnəbi tələbə təhsil alır ki, onların da əksəriyyətini Türkiyədən olan tələbələr təşkil edir.

Professor Cem Birol isə rəhbərlik etdiyi British University of Nicosia haqqında məlumat verərək bildirib ki, bu universitet ötən il yaradılıb və ilk tələbələrini gələn ildən qəbul edəcək. Artıq British University of Nicosia bir sıra beynəlxalq təhsil müəssisələri ilə əlaqələr qurub: "İndi də Azərbaycan Tibb Universiteti ilə tanış olmaq istədik. Azərbaycan bizim üçün



qardaş məmləkətdir, burada təhsil və tədrisin hansı səviyyədə olduğunu öyrənmək istəyirik".

Kiprin ən böyük xəstəxanasının baş həkimi, mərhum prezident Rauf Denktaşın şəxsi həkimi olmuş Ersan Berksel universitetdəki Sağlıq fakültəsindən söz açıb. Türkiyəli professor ATU-nun bu sahədə təcrübəsi ilə tanış olmaq istədiyini bildirib. Qeyd edib ki, British University of Nicosia-da həmçinin tibb sahəsində magistratura təhsili vermək də nəzərdə tutulub və burada azərbaycanlı tələbələrə əlverişli şərtlər daxilində imkan yaradıla bilər.

Görüş zamanı Azərbaycan Tibb Universiteti ilə British University of Nicosianın gələcəkdə iş birliyi qura biləcəkləri haqqında da müzakirələr aparılıb. Qərara alınıb ki, növbəti görüşlər üçün əməkdaşlıq haqqında memorandum layihəsi hazırlansın.

**ATU-nun Mətbuat xidməti**

# "Təbib" istirahət

**◆ Artıq neçə illərdir ki, universitetimizin Nabranda yerləşən " Təbib" istirahət düşərgəsinə ezam olunur, əməkdaşlarımızın dincəldiyi bu gözəl məkandan maraqlı reportajlar hazırlayırıq. Bu ənənəmizi davam etdirmək üçün növbəti dəfə təbiətin bizlərə bəxş etdiyi bu əsrarəngiz gözəlliyə bir daha baş çəkmək qərarına gəldik. Bəli, yolumuz yenə də Nabranadır. Qızmar yay günəşinin istisindən qorunmaq üçün insanların üz tutduqları məkana. O məkana ki, indi yüzlərlə istirahət mərkəzini qoynuna alıb.**



Sükan arxasında əyləşən qəzetimizin əməkdaşı Qabil Abdullayevin idarə etdiyi maşın səsli-küylü şəhərdən uzaqlaşdıqca ovqatımız da dəyişirdi. Baş-başa vermiş qollu-budaqlı ağacların yol boyu qurduğu çardaqlar ilahi gözəlliyin təcəssümüdür. Bu çardaqlı, bənzərsiz yollar boyu qamətli çinarlar, gövdəli palıdlar, salxım söyüdlər könlümüzü oxşayır. Belə bir duyğu, hiss, həyəcan, qürur içində maşınımız Nabrana tərəf irəliləyir.

Beləcə nikbin düşüncələrin qanadında bir-birindən gəzməli, görməli, axarlı-baxarlı olan ölkəmizin dilbər guşələri Siyəzən, Şabran, Xaçmaz şəhərlərini arxada qoyuruq. Artıq Nabran adlı bir cənnətməkanın ərazisindəyik. Sağ qolumuz üstə göy gözlü Xəzər sakit-sakit dalğalanır, əks tərəfdən Şahdağdan əsən meh üstümüzü bürüyür. Bundan o yana isə sirli təbiətin ilahi gözəlliklərini insan əli ilə qurub-yaradan gözəlliklər tamamlayır. Burada bir il ərzində o qədər yeniliklər edilib ki, gedəcəyimiz ünvanı ötüb keçəcəyimizdən ehtiyatlanırıq. Bir-birindən yaraşıqlı istirahət zonaları göz işlədikcə sıralanıb gedir.

Çox çəkmir ki, maşınımız bizə doğma olan lövhənin qarşısında dayanır. Biz düşərgənin həyətinə daxil olanda istirahətçilər onlar üçün ayrılmış korpusların qarşısında dincəlirdilər. Tanıdığımız və tanımadığımız admlarla salamlaşıb hal-əhval tuturuq. Gözümüz bu insanların içərisində ən əvvəl köhnə tanışlarımızı-necə deyərlər hər il gəlib burada dincələn daimi sakinləri axtarır. Bizi düşərgənin əməkdaşı Samir Yaqubov qarşılayır.

Yol yorğunluğumuzu canımızdan çıxarmaq üçün bir balaca dincəlməyə ehtiyacımız var. Lakin dənizlə meşənin qovşağında, hay-küylü şəhərdən kənar bir yerdə ən yaxşı istirahət təbiətlə baş-başa qalmaqdır. Biz də bu minvalla düşərgəni dolaşırıq. Başı buludlardan nəm çəkən ağaclar isti yay günəşini görünməz etmişdi. Salxım söyüdlərlə əhatələnmiş bulaq da həmişəki kimi əraziyə xüsusi gözəllik verirdi. Yarpaqlarını xəfif meh titrədən ağacların kölgəsində əyləşən sakinlərin baxışlarında gərgin işdən sonra bir rahatlıq hiss olunurdu. İstirahətçilər dəstə - dəstə öz ailəsi ilə birlikdə çay içir, söhbət edir, dincəlirlər. Ötən bir il müddətində diqqətimizi çəkən dəyişiklər gözümüzdən yayınmır. İkinci mərhələ başlasa da ərazinin səliqə- sahmanı əvvəlki kimi qorunub saxlanıb. Korpusların həyəti tullantılardan təmizlənmiş, düşərgənin ətrafındakı qurumuş ağacların təhlükə törədən kötükləri çıxarılıb atılmış, alaq otlar səliqə ilə biçilmişdir. Piyadaların gediş-gəlişi üçün nəzərdə tutulmuş səkilər də qaydaya salınmış, binaların fasadı rənglənmiş, bir sıra lazımi abadlıq işləri aparılmışdır. Çox qisa bir vaxtda biz hiss etdik ki, burada sakitlik tam təmin olunub. İstirahət edən əməkdaşlar bir-birlərinə qarşı çox sayğı, hörmətlə yanaşır. Onu da öyrəndik ki, digər istirahət düşərgələrinə baxanda burada əməkdaşlara xidmətin , əyləncəli tədbirlərin səviyyəsi onlara göstərilən diqqət və qayğı daha nümunəvi, daha ürəkaçandır.



Biz **"Təbib" İstirahət Düşərgəsinə** yetişəndə uşaqlar arasında keçirilən dama yarışı artıq başa çatmışdı. Yarışda 30-a yaxın yeniyetmə iştirak edirdi. Münsiflər heyəti tərəfindən qaliblər müəyyənləşdi və onlar medallarla mükafatlandırıldı. Bəlli oldu ki, I yeri Yusifli Kənan, II yeri Əhmədov Kənan, III yeri isə Ağamalıyeva Fatimə tutub. Medallar veriləndən sonra Azərbaycanın Dövlət Himni oxundu.

Sonra Azərbaycan Tibb Universitetinin Bədən tərbiyəsi və idman kafedrasının baş müəllimi Azər Bağırov növbəti yarışın ümumi fiziki hazırlıqdan ibarət olacağını uşaqların diqqətinə çatdırdı və oyunun keçiriləcəyi vaxtı elan etdi.

**A.Bağırov bizimlə söhbətində bildirdi ki**, *düşərgədə istirahət edənlərin təhlükəsizliyini təmin etmək, onları əyləndirmək üçün bir sıra idman yarışları və mədəni tədbirlər təşkil edirik. Bunlarla birgə həmçinin çimərlikdə iməcliklər təşkil edir, kənar avtomobillərin və kənar şəxslərin bizim ərazimizə daxil olmasının qarşısını alırıq. Çimərlikdə təmizliyə riayət olunur, həmçinin soyunub-geyinmə otağı təşkil etmişik. İstirahət üçün lazımi şəraiti yaratmağa çalışırıq. Düşərgənin rəisi Malik müəllimlə birgə əl-ələ verib istirahət edənlərin vaxtlarını mənalı keçirmələri üçün əlimizdən gələni edirik.*

*Gənclərimiz fiziki hazırlıq baxımından zəif olduğundan qərara gəldik ki, onları fiziki hazırlıq vərdişlərinə yiyələndirmək üçün imkan daxilində öz addımlarımızı ataq. Çünki gələcəkdə onlar vətənimizin keşiyində dayanarkən özlərini müdafiə etməyi bacarmalıdırlar. Bu səbəbdən ümumi fiziki hazırlığı da yarışlara salmışıq. Burada qaçışdı, turnikdə dartınmadı, yerdə qolların bükülüb açılması və sairədi. Bundan əlavə şaşki, domino , voleybol, futbol, tenis, şahmat və nərd yarışları da təşkil edirik. Bu yarışdan öncə rəsm yarışı keçirdik və uşaqlar gözəl və mənalı rəsmlər çəkdilər.*



Ezamiyyətimizin ikinci günü daha çox Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun düşərgəyə gəlişi ilə yadda qaldı. O, bütün korpusları gəzib istirahətçilərlə hal-əhval tutdu, əməkdaşların hər birinə universitetimizin rektoru, akademik Əhliman Əmiraslanovun salamlarını yetirdi. Burada dincələnlərlə səmimi ünsiyyət quran C.Qasımov onların arzu və təkliflərini dinlədi, bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi apardı. Komitə sədri sakinlərlə görüşündə bir daha qeyd etdi ki, gərgin zehni əməklə məşğul olan əməkdaşlarımızın istirahəti həmişə olduğu kimi, bundan sonra da universitet rəhbərliyinin daim diqqət mərkəzində duran ən ümdə vəzifələrdən biridir. Düşərgənin səliqə- sahmanına nəzər yetirən C.Qasımov xörəklərin hazırlandığı mətbəxin və ərzaq saxlanılan anbarın ümumi vəziyyəti ilə maraqlandı, təsərrüfat işçilərinə tövsiyələrini verdi. O, ilk öncə mətbəxə baxış keçirdi, aşpaz Afidə Kazımovanın bişirdiyi yeməklərə diqqət etdi. Öyrəndik ki, istirahətçilər üçün dovğa və makaronla toyuq əti hazırlanır.

Mətbəxdə həqiqətən də bir səliqə-sahman var idi. Söhbət əsnasında məlum oldu ki, mətbəx tamamilə sökülüb və yenidən tikilib. Hətta burada aşbazın yuyunması üçün də xüsusi şərait yaradılıb, daim isti və soyuq su ilə təmin olunubdur.

Ərzaqların saxlandığı anbar da nəzərdən keçirildi. Ərzaq məhsullarının standartlara uyğun saxlandığının şahidi olduq. Burada ət və ət məhsulları, o cümlədən ağartı məhsulları ayrıca saxlanır. Aşpaz yeməkləri bitki və kərə yağından hazırlayır.





Biz də ənənəvi olaraq istirahətçilərin bir neçəsi ilə söhbət etməli oluruq. Onlara burada necə xidmət göstərilməsi, düşərgədə əvvəlki illərə nisbətən hansı yeniliklər olması, ümumiyyətlə, yaradılan şəraitin

onları qane etməsi və digər suallarla bağlı sakinlərə müraciət edirik. Müsahiblərimizin hamısının üz-gözündən razılıq hissi duyulur.

**Tibbi biologiya və genetika kafedrasının müdiri, biologiya elmləri doktoru, professor Canbaxış Nəcəfov:**

*- "Təbib" düşərgəsində 7 ildir ki, hər yay ailəvi istirahət edirik. Ötən illər ərzində yeniliklərin şahidi olmuşuq. Bir neçə il öncə düşərgədə mətbəxin vəziyyəti elə də xoşagələn deyildi. Hazırda burada səliqə-sahman hökm sürür. Sanitariya-gigiyena qaydalarına yaxşı əməl olunur. Buranın gözəl şəraiti var. İstirahət*

**Məmmədov:**

*- Buranın çox gözəl coğrafi mövqeyi var. Bir az tarixə müraciət etsək görərik ki, ərəb tarixçiləri, Azərbaycanda olmuş Avropa səyyahları Nabranın füsunkarlığı, gözəlliyi barədə öz xatirə və əsərlərində dəfələrlə qeyd ediblər. Mən yazdığım "Azərbaycanın şimal qapısı –Xaçmaz" monoqrafiyamda da bu mövzuya ətraflı toxunmuşam.*

*10 ildən yuxarı olar ki, mən də ailəmlə bu "Təbib" istirahət düşərgəsində istirahət edirəm. Gərgin işdən sonra bizim günlərimiz burada keçib. Son dövrlər bu istirahət*



*Bu gün də həmin ailələr öz övladları ilə istirahət düşərgəsinə dincəlməyə gəliblər.*

*tez düşərgəyə gəlir, hər bir əməkdaşla maraqlanır. Düşərgə rəisinin işi də təqdirəlayqdir.*

**Əhmədov:**

*- Təxminən 10 ilə yaxındır ki ailəmlə burada istirahət edirəm. Buranı təmizlyindən, səliqə-səhmanından, yeməyin keyfiyyətindən çox razıyam. Elə bil təbiət də bizi xoş məramla qarşılayıb. Hava sərindir və elə istilər müşahidə olunmur. Hərdən yağan yağışın da bir ayrı ləzzəti var.*

**Xarici dillər kafedrasının müəlliməsi Sevinc Cəfərova :**

- 5 ildir ardıcıl olaraq bura gəlirəm. Bizim üçün xoşdur burada istirahət etmək. Oğlum burada yaxşı istirahət edir. Söhbət əsnasında Sevinc xanımın oğlu **Cəmilin** də münasibətini

# düşərgəsi universitetimizin sərvətidir

*edənlərə verilən ərzaq və qida məhsullarının da keyfiyyətinə söz ola bilməz. Deyərdim ki, bu düşərgə Azərbaycan Tibb Universitetinin əməkdaşlarına bəxş olunmuş bir sərvətdir. Burada həm də bizim balalarımız*

*düşərgəsində ciddi dəyişikliklər olub. Həm əməkdaşların istirahətinin təşkilində, həm qidanın keyfiyyətinin yaxşılaşdırılmasında əməlli-başlı irəliləyiş nəzərə çarpır.*

*Bu məkana təkcə bir istirahət*

**Operativ cərrahlıq və topoqrafik anotomiya kafedrasının baş müəllimi Arif Kosayev:**

*-10 ildir hər yay ailəmlə burada istirahət edirəm. Əvvəl ailəmlə bura dincəlməyə gəlirdimsə, indi bizə nəvələrim də qoşulub. Yanımdakı nəvəmin artıq 6 yaşı var. (nəvəsini göstərir-red). Burada bizə isti və xoş münasibət var və istirahətimiz üçün hər cür şərait yaradılıb. Çarpayıdan tutmuş dolablara qədər hər şey təzələnibdir.*

**Biofizika və bioüzvi kimya kafedrasının professoru Əhliman Süleymanov:**

*- Son 15 ildə hər il nəvələrim ilə bura istirahətə gəlirəm. Rahat şərait var. Bu şərait mənim, ailəmin və nəvələrimin ürəyincədir ki, hər il bura istirahətə gəlirik. Yeməklər olduqca dadlı bişirilir. Elə bil öz evimizdə yemək yeyirik. Meşə və dənizin də ayrı ləzzəti var. Belə yerdə də istirahət etməyib nə edəsən?- deyərək razılıq hissi ilə gülümsəyir.*

**Fəlsəfə kafedrasının dosenti Məhəmməd Paşayev:**

*- Uzun illərdir ki, mən universitetimizin "Təbib" düşərgəsində yollayışla ailəvi istirahət edirəm. Deyə bilərəm ki, bu illər ərzində hər dəfə düşərgəyə gələndə yeniliklərin şahidi oluram. Baxmayaraq ki, istirahət otaqları xeyli müddət əvvəl inşa olunub, hamısı təmiz, səliqəlidir. Yataq dəstləri isə tez-tez yenisi ilə əvəz olunur. Qida məsələsi də yaxşı təşkil olunub. Ət əməkdaşların gözü önündə doğranır və biz həmin ətin keyfiyyətinə əmin oluruq. İstirahətimiz səmərəli, şən, qayğısız keçir.*

*Sonda qeyd edim ki, universitet rəhbərliyinə, xüsusən də bu işə bilavasitə qayğı göstərən universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımova ailəmiz adından təşəkkürümü bildirirəm. Cahangir müəllim düşərgənin işi ilə çox ciddi, yaxından və müntəzəm məşğul olur. Tez-*

*Bizə lazımi qayğı göstərir.*

**Ümumi gigiyena və ekologiya kafedrasının dosenti Elmira Abbasova:**

*- 1998-ci ildən bu yana hər il bu düşərgədə istirahət edirik. Buranın təbiəti, havası, bizə*

öyrənirik:

*- Yarışlarda iştirak etmişəm. Şaşki və rəsm üzrə keçirilən yarışlarda yer tutmuş və medallar qazanmışam. 9 yaşım var. Buradakı şəraitdən çox razıyam. Dostlarım da var. Bura-*





*istirahət edir, hansı ki, onlar bizim gələcəyimizdir. Bunu univerisitet rəhbərliyinin bizə olan qayğısı və diqqəti hesab etmək olar. Ona görə də biz öz işimizlə bu diqqəti doğrultmağa çalışmalıyıq. Mən həm də universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımova və düşərgənin rəisi Malik Əbülhəsənova öz minnətdarlığımı bildirirəm ki, onların fəaliyyəti nəticəsində düşərgədə belə gözəl şərait yaranıb.*

**İctimai fənlər kafedrasının professoru Fəxrəddin**

*nöqteyi-nəzərindən yanaşmaq düzgün deyil. Biz həm də "Təbib" düşərgəsinə bir ailə düşərgəsi kimi baxmalıyıq. Buradan gedəndən sonra ailələr və uşaqlar bir-biri ilə əlaqə saxlayır, hal-əhval tuturlar. Bundan gözəl nə ola bilər? Hətta onu da vurğulaya bilərəm ki, normal istirahət şəraitinin yaradılmasının nəticəsidir ki, burada istirahət edən uşaqlar bir-birləri ilə tanış olub, böyüyüb, ailə qurublar. Buna misal kimi İslam müəllimlə Canbaxış müəllimin övladlarının qurduğu ailəni nümunə çəkə bilərəm.*



*olan isti və xoş münasibət hər il bizi bura gəlməyə vadar edir. Bəlkə də inanmazsınız, nəvəm yuxusunda da buraları görür, arada bura üçün darıxır da. Hər il istəyirik ki, vaxt tez yetişsin, nəvələrimlə bura istirahətə gələk. Hazırda nəvəmin 13 yaşı var. Buranın yaxşı özəlliyindən biri də hamının bir-birini tanımasıdır. Valideynlər həm də bir-birlərinin uşaqlarına nəzarət edə bilirlər. Burada həmçinin uşaqların vaxtlarını səmərəli keçirmələri üçün də ələ şərait var.*

**Ümumi gigiyena və ekologiya kafedrasının dosenti Sahib**

*dan gedəndə də zəngləşir, birbirimizdən hal-əhval tuturuq. Dostlarımdan Cabbarın, Kamranın, Kənanın adlarını çəkə bilərəm.*

**İctimai fənlər kafedrasının dosenti Yavər Vəliyev:**

*- Əvvələ universitetin rəhbərliyinə dərin təşəkkürümü bildirirəm ki, Azərbaycanın dilbər guşəsi olan Nabranda bizim üçün belə yüksək səviyyədə istirahət təşkil edib. Malik müəllim həmişə istirahətimizlə maraqlanır. Aşpaz Afidə xanımın bişirdiyi yeməklərin dadından isə doymaq olmur.*

(davamı səh. 8-də)



# Akademik Zərifə Əliyeva adına Beynəlxalq Tibbi Elmi Mərkəz ukraynalı həmkarlarla əməkdaşlığı genişləndirir

**Kiyevdə akademik Zərifə Əliyeva adına Beynəlxalq Tibbi Elmi Mərkəz ilə Ukrayna Milli Tibb Elmləri Akademiyasının Mamalıq, Ginekologiya və Pediatriya İnstitutu arasında əməkdaşlıq haqqında saziş imzalanıb.**



Sənədin imzalanma mərasimindən sonra Mamalıq, Ginekologiya və Pediatriya İnstitutunun direktoru akademik Yuri Antipkin və akademik Zərifə Əliyeva adına Beynəlxalq Tibbi Elmi Mərkəzin rəhbəri, həmvətənimiz, tibb elmləri doktoru, professor Aydın Salmanov məruzələrlə çıxış ediblər.

A.Salmanov qeyd edib ki, imzalanmış sazişə əsasən, azərbaycanlı alimlər də cəlb edilməklə birgə elmi layihələr həyata keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, Azərbaycan üçün mamalıq, ginekologiya və pediatriya sahəsində elmi kadrlar hazırlanması, müştərək elmi konfranslar keçirilməsi, habelə dost ölkələrimizin müvafiq profilli institutları və tibb müəssisələri ilə birbaşa elmi əlaqələr yaradılması planlaşdırılır.

O xatırladıb ki, akademik Yuri Antipkin akademik Zərifə Əliyeva adına Beynəlxalq Tibbi Elmi Mərkəzin Əlaqələndirmə Şurasının üzvü və Ukrayna ilə Azərbaycan arasında sıx, qarşılıqlı faydalı əməkdaşlığın fəal tərəfdarıdır. Bundan əlavə, institutun iki akademiki və 17 professoru yaxın gələcəkdə Kiyevdə nəşrinə başlanacaq Ukrayna-Azərbaycan beynəlxalq elmi-tibbi jurnalın redaksiya heyətinə daxildir.

Akademik Yuri Antipkin də ikitərəfli əməkdaşlığın möhkəmlənməsi və genişlənməsi işində parlaq perspektivlər açan bu sazişin imzalanmasının vacibliyinə əmin olduğunu bildirib. O, Azərbaycanda sosial-iqtisadi inkişafın səviyyəsini yüksək qiymətləndirib, respublikada müasir texnologiyalar əsasında həyata keçirilən infrastruktur layihələri, o cümlədən tibb müəssisələrinin tikintisini və onların müasir diaqnostika avadanlığı ilə təchiz edilməsinin əhəmiyyətini vurğulayıb.

Akademik Y.Antipkin və professor A.Salmanov akademik Zərifə Əliyeva adına Beynəlxalq Tibbi Elmi Mərkəzin (http://zarifacenter.org/) fəaliyyətini xüsusi qeyd ediblər. Nəzərdə tutulan layihələrin, o cümlədən müştərək tədbirlərin həyata keçirilməsinin, kadr mübadiləsinin, gənc alimlərə və aspirantlara birgə elmi dəstək verilməsinin, kitab nəşrinin və digər tədbirlərin vacibliyi vurğulanıb.

Sonda hər iki tərəf qarşılıqlı faydalı münasibətlərin inkişafı üçün yaranan yeni imkanlardan məmnun olduqlarını bildirərək, Azərbaycanın və Ukraynanın müvafiq profilli institutlarını və tibb müəssisələrini əməkdaşlığa çağırıblar.

**Zeynal AĞAZADƏ**

# Yaşıl möcüzə-Xlorofil

**İnsan saniyənin mində biri ilə saniyənin iki mində biri arasındakı fərqi ayırd edə bilmir. Hər iki müddət insanın anlamayacağı və qavramayacağı qədər kiçikdir. Saniyənin on milyonda biri kimi kiçik olan müddət isə insanın xəyal belə edə bilmədiyi kiçik zamandır. Məhz yarpaqlardakı xlorofil molekulları bu qısa müddət ərzində hərəkətə keçir və möhtəşəm işlər görür.**



Bir millimetrlik sahə düşünək. Bu sahə bir qələmin ucu qədər kiçik yeri tutur. İndi bu kiçik yerə 500 min xüsusi cihaz yerləşdirək. Bu cihazların hər biri xüsusi dizayna və funksiayaya sahib olsun. Bundan başqa, 500 min cihazı xüsusi sistemlə qoruyaq.

Bəlkə bu ssenari oxunduğu zaman imkansız görünə bilər. Ancaq Allahın yaratması qüsursuz və möcüzəvidir. Yuxarıda bəhs etdiyimiz misal həyatda mövcuddur. Bir yarpağın ortasındakı





bir millimetrlik sahədə 500 min xlorofil mövcuddur. Çox qarışıq dizayna sahib olan "xlorofil molekulları" insan həyatı üçün çox vacib funksiyanı yerinə yetirir.

Belə hesab edək ki, sizdən xüsusi cihaz hazırlamaq tələb olunur. Hazırlayacağınız cihazın funksiyası su molekullarını parçalamaqdır. Məlumdur ki, su 2 hidrogen və 1 oksigen molekulundan ibarətdir. Hazırlayacağınız cihaz da hidrogen molekulunu oksigendən ayırmalıdır. Sudakı hidrogen və oksigen atomlarının bir-birindən ayrılması üçün çox böyük partlayış olmalı və ya su molekulları minlərlə dərəcədə qızdırılmalıdır. Suyun 100 dərəcədə qaynadığını düşünsək, ehtiyacımız olan enerjinin miqdarı bizə daha yaxşı aydın olar. Sizdən isə elə bir alət hazırlamaq tələb olunur ki, nə partlayışa, nə də minlərlə dərəcəlik temperatura ehtiyacı olsun. Yeganə enerji qaynağı isə gün işığı olsun. Sizdən tələb olunan və hazırlayacağınız cihazın çox çətin vəzifəsi də vardır. Havadakı karbondioksidi əldə etdiyi hidrogenlə birləşdirmək.

**Elm dünyası xlorofilin funksiyalarını müəyyən etməyə çalışır.**

Bu əməliyyatı həyata keçirən cihaz hazırlasanız, elm tarixinə adınızı qızıl hərflərlə yazdıra bilərsiniz. Çünki elm dünyası hələ də yuxarıda bəhs etdiyimiz əməliyyatı bitkilərin necə etdiyini tapmağa və anlamağa çalışır. Məhz "xlorofil" adlanan molekul bu fəaliyyəti reallaşdıran yeganə cihazdır. Xlorofilin dizaynı araşdırıldığı zaman Allahın hər şeyi incəliyinə qədər hesablaması və sonsuz ağılla yaratması daha aydın görünür.

55 karbon, 72 hidrogen, 5 oksigen, 4 azot və 1 maqnezium atomunun xüsusi sıra və dizaynla birləşməsi nəticəsində xlorofil molekulu yaranmışdır. Bu molekulun fəaliyyət göstərməsi üçün hər atomun yerli-yerində olması vacibdir.

Xlorofilin fəaliyyətini tam şəkildə qavramaq insan ağlının hüdudları xaricindədir. Çünki insan zamana bağlı canlıdır və müəyyən zaman intervalını qavrayır. İnsan 1 saniyə ilə 10 saniyə arasındakı fərqi dərk edə bilir. O, saniyənin mində biri ilə saniyənin iki mində biri arasındakı fərqi ayırd edə bilmir. Hər iki müddət insanın anlamayacağı və qavramayacağı qədər kiçikdir. Saniyənin on milyonda biri kimi olan müddət isə insanın xəyal belə edə bilmədiyi kiçik müddətdir. Xlorofil cihazı məhz bu qısa müddət ərzində hərəkətə keçir.

**Saniyənin milyonda birində baş verən ağlasığmaz reaksiyalar**

Məlumdur ki, işıq fotonlardan ibarətdir. Yaşıl yarpaqların içindəki suya toxunan işıq xlorofil cihazına yüklənir. Bu yüklənmə xlorofildəki subatom zərrəcikləri hərəkətə gətirir və orbitlərini dəyişdirir. Bu fəaliyyət saniyənin 10 milyonda biri kimi qısa müddət ərzində reallaşır və subatom zərrəcikləri su molekulundakı hidrogeni oksigendən ayırırlar. Bu fəaliyyət o qədər sürətlə baş verir ki, elm adamları subatom zərrəciklərin hidrogen və oksigeni bir-birindən necə ayırdığını hələ də anlaya bilmirlər.

Ayrılan hidrogenlər ferment və ya katalist adlanan daha böyük, spiral formalı zülal molekulları tərəfindən tutulur. Bu fermentlər onları tutmaq üçün xüsusi formaya malikdirlər. Bunlar hidrogeni içəri qəbul olunan karbondioksidlə elə birləşdirirlər ki, hər iki molekul çox yüksək sürətlə fırlanaraq kimyəvi şəkildə bir-birlərinə qarışır. Bu qəliz fəaliyyəti elm adamları hələ də açıqlaya bilmirlər. Çünki bu sistemi təcrid edərək araşdıran imkanlara sahib deyillər. Onlar sadəcə olaraq ortaya çıxan vəziyyəti qiymətləndirərək faliyyət əsnasında nələr baş verdiyini izah edə bilirlər.

Bir xlorofil molekulunun içində onun necə işlədiyini insanın hələ anlamadığı sistem vardır. Üstəlik bu sistem saniyənin 10 milyonda biri kimi qısa müddət ərzində reallaşır. İnsan sahib olduğu bütün texnologiyaya, laboratoriyalara baxmayaraq xlorofil molekulunun bacardığı işi bacarmır. Şübhəsiz, xlorofilin sahib olduğu dizayn və gördüyü iş Allahın nümunəsiz, bənzərsiz yaratmasının və sonsuz elminin dəlillərindən biridir.

Bir qələmin ucu bir millimetrlik yeri tutur. Bir yarpağın üzərində qələmin ucu böyüklüyündəki sahəyə 500 min xüsusi cihaz, yəni xlorofil yerləşdirilmişdir.

«qadin.az»

# 700 bal toplayan iki abituriyent Azərbaycan Tibb Universitetini seçib

## İlkin Məmmədzadə: "Yüksək ixtisaslı həkim olmağı arzulayıram"



**İlkin Məmmədzadə bu il qəbul imtahanlarında seçilməyi bacaran bir neçə gəncdən biridir. Ağdamlı bu gənc IV qrup üzrə imtahanlarda ən yüksək nəticə - 700 bal toplayıb. İlkin seçimdə üstünlüyü Azərbaycanın ən iri ali təhsil ocağı olan Tibb Universitetinə verib.**

İlkin Məmmədzadə 1996-cı ildə Ağdam rayonunun Çəmənli kəndində anadan olub. İmtahanlara ciddi hazırlaşıb: "Sınaqlarda yaxşı bal toplayırdım. Özümə güvənirdim. Çox çalışırdım. Amma yalnız son illər məşğul olmadım, əvvəlcədən dərslərimə diqqətlə yanaşmışam, həmişə əlaçı olmuşam".

İlkin qazandığı uğura görə valideynlərinə və müəllimlərinə borclu olduğunu hesab edir: "Onlar mənə hər zaman dəstək olurdular, ən yüksək bal toplaya biləcəyimə inanırdılar. Müəllimlərim mənim üçün çox çalışırdılar ki, yaxşı nəticə əldə edim".

İxtisas seçiminə gəldikdə, İlkinin sözlərinə görə, bu məsələdə valideynləri ilə yekdil qərar veriblər: "Tibb Universitetinin müalicə fakültəsini seçmək qərarına gəldik. Çünki orada həm yüksək səviyyəli, bəyəndiyim müəllimlər çoxdur, həm də tələbə kontingenti mən arzuladığım səviyyədədir".

İlkin Məmmədzadə əziyyətinin hədər getməyəcəyinə, gələcəkdə yüksək ixtisaslı həkim olacağına inanır.

## Nicat Qasımov: «Əsas məqsədim beyin cərrahiyyəsi və ya kardiologiya üzrə mütəxəssis olmaqdır»



**Bu il qəbul imtahanlarında 700 bal toplayan abituriyentlərdən ikisi Azərbaycan Tibb Universitetinin tələbəsi olmağı seçib. Onlardan biri də Nicat Qasımovdur.**

**İmtahanda ən yüksək nəticə göstərən Nicat ATU-nun müalicə işi fakültəsinin tələbəsi olmağa üstünlük verib.**

Nicat 1997-ci ildə Ağsu şəhərində anadan olub, rayondakı 1 saylı orta məktəbin məzunudur. Deyir ki, qəbul imtahanı o qədər də çətin keçməyib: "Bir qədər həyəcanlı idim. Buna baxmayaraq, 700 bal toplaya bildim və buna çox sevinirəm".

Nicat heç vaxt ilkin ali təhsilini xarici ölkədə almaq arzusunda olmayıb: "Valideynlərimin hər ikisi həkim olduğundan, ixtisas seçimində elə də çətinliyim olmadı. Onların dəstəyi və öz həvəsimlə IV ixtisas qrupunu seçdim. Keyfiyyətli tibbi təhsil almaq üçün ATU məni tam qane edir. Əsas məqsədim beyin cərrahiyyəsi və ya kardiologiya üzrə mütəxəssis olmaqdır".

N.Qasımov gələcəkdə xarici ölkələrdən birində rezidentura təhsili ala biləcəyini istisna etmir.

# Bir neçə dil bilmək yüksək intellektin göstəricisidirmi?

**Əvvəllər hesab olunurdu ki, bir neçə dildə sərbəst danışan insanlar 1-2 dil bilən yaşıdlarından xeyli ağıllıdırlar. Lakin Abertey universitetinin (Dandi, Şotlandiya) alimləri sübut ediblər ki, bir neçə dil bilmək hələ yüksək intellektin göstəricisi deyil.**

AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, alimlər tədqiqatda iştirak edən könüllüləri üç qrupa bölüblər. Birinci qrupa çox dil bilənlər, ikinci qrupa poliqlotlar, üçüncü qrupa isə yalnız ingilis dilinin iki dialektini bilənlər daxil idi. Məlum olub ki, bu üç qrupda intellektin səviyyəsi barədə bütün xəbərdarlıqlar və fərziyyələr uydurmadır.

Qeyd edək ki, yeni dilləri öyrənmək xeyirdir. Bu yaddaşı inkişaf etdirir, səyahətə çıxmaq, müxtəlif ölkələrin mədəniyyətləri ilə tanış olmaq üçün yeni imkanlar açır. Təzə bir şey öyrənmək insan ahıl yaşa çatanda da zehin aydınlığını saxlamağa və intellektual tənəzzüldən qorunmağa kömək edir.

# Soğan suyunun faydası

**Hamı bilir ki, soğan çox faydalı tərəvəzdir. Lakin tək soğan deyil, onun qabıqları da çox faydalıdır.**

Soğan qabığı insanın:

- immun sistemini möhkəmləndirir,
- iltihab əleyhinə və antiseptik təsirinə malikdir,
- aterosklerozla mübarizə aparır,
- ürək əzələsinin və damarların tonusunu artırır,
- qan dövranını yaxşılaşdırır,
- qanda xolesterinin səviyyəsini azaldır,
- sidik və öd qovucu təsir edir,
- qadınlarda və kişilərdə sidikcinsiyyət sistemi iltihabları, qadınlarda menstruasiya funksiyasının pozulması zamanı yaxşı təsir edir,
- orqanizmi şlaklardan və toksinlərdən təmizləyir,
- yaraların, yanıqların daha tez sağalmasına kömək edir,
- xərçəng əleyhinə təsir edir və s.



Dəmləməni hazırlamaq üçün xırda doğranmış 2 xörək qaşığı soğan qabığının üzərinə 400 ml qaynar su əlavə olunur və 15 dəqiqə ərzində su hamamında qaynadılır. Daha sonra dəmləmə soyudulur və süzülür.

**Bu dəmləmə aşağıdakı hallarda uğurla istifadə oluna bilər:**

- angina zamanı qarqara şəklində,
- bronxit zamanı. 1 xörək qaşığı soğan qabığı dəmləməsi + 1 xörək qaşığı bal isti südə əlavə olunur və axşam yatmazdan əvvəl içilir.
- soyuqdəymə zamanı. 2 xörək qaşığı soğan qabığı dəmləməsinə 1 çay qaşığı bal əlavə olunur və gündə 3 dəfə qəbul olunur.
- yaz və payız avitaminozları zamanı. 1 stəkan soğan qabığı dəmləməsi + 1/2 stəkan limon şirəsi qarışdırılır və gün ərzində 2 dəfə yeməkdən sonra 1/3 stəkan içilir. Müalicə kursu - 21 gün.
- damaqların iltihabları zamanı . Dəmləmə ilə gün ərzində 3 dəfə qarqara edilir.
- qadınlarda cinsiyyət sistemi iltihabları və menstrual funksiyasının pozulmaları zamanı. Soğan qabığı dəmləməsi gündə 3 dəfə qəbul olunur (stəkanın 1/3 hissəsi). Müalicə müddəti - 2-3 həftə.

Soğan qabığı digər xəstəliklər və pozulmalar zamanı da uğurla istifadə olunur. İstifadədən əvvəl həkimlə məsləhətləşmək tövsiyə olunur.

# Ebola qızdırmasına qarşı eksperimental vaksin yaradılıb

**Rusiyanın tibb işçiləri Ebola qızdırmasına qarşı eksperimental vaksin işləyib yaradıblar. Bu vaksinin sınaqları artıq ilk müsbət nəticələrini verib.**

Rusiya Federasiyasının səhiyyə naziri Veronika Skvortsova bu sözləri "RİA Novosti" Agentliyinə müsahibəsində deyib. Qeyd edilib ki, RF Səhiyyə Nazirliyinin D.İ.İvanovski adına Virusologiya Elmi-Tədqiqat İnstitutunun əməkdaşlarından və İstehlakçıların hüquqlarının və insanların rifahının qorunmasına nəzarət üzrə federal xidmətin ("Rospotrebnadzor") bir əməkdaşından ibarət qabaqcıl qrup Qvineyadan qayıdıb. V.Skvortsova sonda deyib: "Biz xəstəliyin törədicisini və onun xarakteristikasını öyrənmişik. Klinikadan əvvəlki sınaqlarda yaxşı nəticələr vermiş eksperimental vaksin əldə etmişik. Yeni vaksinin sınaqları davam etdirilir. Ümidvarıq ki, bu sınaqlar uğurlu olacaqdır".

Həmçinin qeyd etmək lazımdır ki, RF Səhiyyə Nazirliyinin D.İ.İvanovski adına Virusologiya Elmi-Tədqiqat İnstitutu ekologiyanın, insan və heyvan viruslarının epidemiologiyasının və molekulyar biologiyasının öyrənilməsi sahəsində dünyada tanınmış elmi-tədqiqat müəssisələrindən biridir.

# Yoqa ilə məşğul olmaq insanı sosiofobiyadan xilas edir

**Belfast (İrlandiya) Kral Universitetinin alimləri sübut ediblər ki, yoqa və relaksasiya gimnastikasının digər növləri ilə məşğul olmaq təlaş hissi keçirən insanlara kömək edir. Relaksasiya insanın dünya qavrayışını dəyişir, ətraf aləm həmin insanın nəzərində pozitiv duyğular oyadır.**

Yoqanın bu cür müsbət effekti hətta mütəxəssislər üçün də gözlənilməz olub. Belə bir eksperiment aparılıb: tədqiqatda könüllü iştirak edənlər ekranda hərəkət edən bir insan təsvirinə tamaşa ediblər. Məxsusi olaraq psixoloji testlər üçün yaradılmış bu fiqur hamıya eyni təsir bağışlamır. Bəzilərinə elə gəlir ki, ekrandakı adam ona baxır, digərləri isə hesab edirlər ki, ekrandakı fiqur üzünü əks tərəfə döndərib. Fiqurun onlara tərəf hərəkət etdiyini bildirənlər arasında sosiofoblar daha çox olub. Bir neçə seanslıq əzələ relaksasiyasından sonra testin nəticələri müsbət tərəfə dəyişib, yəni, təlaş hissi keçirən könüllülərə elə gəlib ki, ekrandakı insan üzünü onlara tərəf çevirib. Bu əlamət fərdin ətrafdakı insanlarla yeni kontaktlar yaratmağa hazır olmasını göstərir.

Yeri gəlmişkən, alimlər daha əvvəl sübut ediblər ki, yoqa depressiya simptomlarını yüngülləşdirir və qanın tərkibində qamma- amin-yağ turşusunun səviyyəsinin artması sayəsində insanda pozitiv əhval-ruhiyyə yaradır.

# Qızlar öz valideynlərinə oğullarla müqayisədə iki dəfə çox qayğı göstərirlər

**ABŞ-dan olan mütəxəssislər sorğu aparıblar və müəyyən ediblər ki, qızlar öz valideynlərinə oğullarla müqayisədə daha çox qayğı göstərirlər.**

AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, bu məlumatlar 26 min amerikalı arasında aparılan anket sorğusunun nəticələrinə əsasən sübut olunub.

Tədqiqatın nəticələrinə görə, qızlar öz valideynlərinə qulluq etmək, onlara gündəlik qayğı göstərmək baxımından daha etibarlıdırlar və valideynlərinə ayda azı 12,3 saat vaxt ayıra bilirlər. Bununla belə, qadınların evi təmizləmək, öz uşaqlarına qulluq etmək və ev işləri görmək kimi bir sıra əlavə vəzifələri var.

Oğullar arasında həmin göstərici 5,6 saat, yəni qızlarla müqayisədə iki dəfə azdır. Oğullar valideynlərinə qulluq etməyi çox vaxt yalnız o halda özlərinə borc bilirlər ki, bu vəzifəni başqa heç kimə həvalə etmək mümkün olmasın. Alimlər bunu acınacaqlı tendensiya hesab edirlər.

# Klaritromitsin antibiotiki aritmiyaya səbəb ola bilər

**Klaritromitsin – bakterial infeksiyaların müalicəsində geniş yayılmış vasitədir. Mütəxəssislər bu preparatın gözlənilməz və xoşagəlməz effektini aşkarlayıblar. Məlum olub ki, preparatı qəbul edən pasiyentlərin bəziləri aritmiya və ürək-damar xəstəliklərinin ağırlaşması ilə qarşılaşır. Bu kəşf infenksiya xəstəliklərinin ənənəvi müalicə sxeminə yenidən baxılmasına səbəb olub.**

AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, alimlər klaritromitsin və roksitromitsinlə müalicə ilə bağlı 5 milyon hala aid statistikanı araşdırıblar. Onlar ürəyin fəaliyyətinə təsir etməyən penisillin qrupuna aid antibiotiklərin də əlavə təsirini nəzərə alırdılar. Tədqiqat zamanı antibakterial terapiya fonunda yaranan ürək-damar xəstəliyindən 285 ölüm hadisəsi qeydə alınıb. Onlardan 18-i klaritromitsin, 32-si roksitromitsin qrupuna aid preparatın qəbulun nəticəsidir.

Tədqiqatlar göstərib ki, həmin antibiotikləri qəbul edən insanlarda ürək-damar xəstəliklərinin ağırlaşması ilə bağlı ölüm riski 76 faiz çoxdur.

# "Təbib" istirahət düşərgəsi universitetimizin sərvətidir

(əvvəli səh. 4-5-də)

*Burada istirahət edənlər yaxşı bilir ki, onlara hansı keyfiyyətdə olan ərzaq məhsullarından, o cümlədən ətdən yemək hazırlanacaq. Hamı hər gün ət məhsulunu görür və bu da təqdirədici haldır. Bir sözlə, düşərgədə*



*bir açıqlıq prinsipi hökm sürür. Burada kəklikotu çayını içməyin ayrı ləzzəti var. Özü də söyüdün altından 40 metr dərinliyindən çıxan bulağın suyundan hazırlanmış çaydan.*

**I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti İsrail Məhərrəmbəyli:**

*- Hər il bura gəlməyi səbirsizliklə gözləyirik. Narazı olacağımız elə bir şey yoxdur. Hər şeydən razıyıq. Xüsusilə də nəzarətdən. Uşaqlar özbaşına düşərgədən kənara çıxa bilmir, onların təhlükəsizliyinə lazımi nəzarət olunur. Biz valideynlər də asudə vaxtımızı səmərəli keçirə bilirik. Boş vaxtlarımızda nərd, domino və şaşki oynayırıq.*

**Məhkəmə təbabəti kafedrasının müəllimi Eldar Ələkbərov:**

*- Bəzi illər istisna olmaqla yayda burada istirahət edirik. Şərait yaxşıdır. Sakitçilikdir. Ailələr bir-birini tanıyır. Dənizdə çimməyi, şahmat oynamağı xoşlayıram.*

**ATU-nun onkoloji klinikasının baş tibb bacısı Kəmalə Zülfiqarova:**

*- Gözəl dincəlirik. Buna görə ATU-nun rəhbərliyinə ailəmiz adından minnətdarlığımızı bildiririk. Yaxşı şərait yaradılıb. Uşaqlar üçün idman*



*növlərinin yarışı və diskoteka təşkil olunub. Onları əraziyə rahat şəkildə buraxa bilirik. 8 ildir ailəvi istirahət edirik. Yaxşı olduğu üçün təkrar bura gəlirik.*

**Fizika kafedrasının baş müəllimi Solmaz Abdullayeva:**

*- 18 il bundan qabaq burada olmuşam. Sözün açığı xoşum gəlməmişdi deyə sonra gəlmirdim. İndi gəlib burada xeyli dəyişikliklərin şahidi olmuşam. Bir neçə gündür buradayam, gəldiyimə peşman deyiləm. Hətta gələn il də bura istirahətə gəlməyi planlaşdırıram.*

**Universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov:**

*- "Təbib" İstirahət Düşərgəsində hər il üç növbəli istirahət müəyyən edilib. Hər növbə isə 15 gün olmaqla 200 nəfər universitetin əməkdaşı istirahət edir (ümumilikdə mövsüm ərzində 600 nəfər).*

*Burada kifayət qədər tikinti-təmir və abadlıq işləri aparılıb. O cümlədən düşərgə lazımi avadanlıqlarla təchiz olunub.*







**- Gələcəkdə burada hansısa yeniliklər gözlənilirmi?**

*- Hörmətli rektorumuz, akademik Əhliman Əmiraslanovun qayğı və diqqətini universitet əməkdaşları daim hiss edib. Fürsətdən istifadə edib akademik Əhliman Əmiraslanova təşəkkür edirəm ki, o öz nüfuzundan istifadə edərək bu düşərgəni əməkdaşlarımız üçün qoruyub saxlaya bildi. Sizin sualınıza gəldikdə isə əlbəttə, yenilkilər hər il olur. Gələcəkdə hörmətli rektorumuzun təşəbbüsü ilə burada yeni, müasir standarlara uyğun bir istirahət kompleksinin inşası nəzərdə tutulub.*

**Düşərgənin rəisi Malik Əbülhəsənov** da buranın hazırki vəziyyəti, həmçinin gələcəkdə görüləcək işlərlə bağlı fikirlərini bizimlə bölüşdü. O, qeyd etdi ki, *hər il olduğu kimi bu il də hörmətli rektorumuz akademik Əhliman müəllimin göstərişi və Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir müəllimin rəhbərliyi ilə burada mövsimə hazırlıq işləri aparılmış, bütün otaqlar təmir edilmiş, sanitar qovşaqlar işlək vəziyyətə gətirilmişdir. Həyat məişət tullantılarından təmizlənir və gündəlik daşınır. Uşaqların mənalı istirahəti üçün də lazımi şərait yaradılıb. Çimərlikdən isə hər gün nəzarətimiz altında iki dəfə istifadə olunur. Küləkli havada çimməyə icazə vermirik. Bir sözlə, çalışırıq ki, hər kəs burada ürəkləri istədiyi kimi istirahət edə bilsin və xidmətimizdən razı qalsın.*

**Bəli, beləcə qonağı olduğumuz "Təbib" istirahət düşərgəsində işimizi yekunlaşırıb yola hazırlaşır, istirahətçilər isə dəniz gəzintisinə tələsirlər. Əlbəttə, biz təbiətin yaratdığı bu əsrarəngiz möcüzəni-bu yerlərin sərin havasını, yaşıl meşəsini, dənizin qırçın dalğalarını özümüzlə apara bilməsək də, bu gözəlliklərin könlümüzdə yaratdığı xoş duyğuları qəzetimizdə işıqlandırmaq amacıyla Bakıya sarı üz tuturuq.**

**Mənsur,**
**Qabil Abdullayev,**
**Fotolar Cənnətalı ÇİNGİZİNDİR**

# Böyrək çatışmazlığı zamanı hemodializ



Sağlam böyrəklər orqanizmdə filtr funksiyasını həyata keçirir.

Böyrəklərin əsas vəzifəsi qanı bir sıra zərərli maddələrdən təmizləməkdir. Onlar gün ərzində bizim qanımızı dəfələrlə (1 dəqiqədə təxminən 1 litr olmaqla) öz "süzgəclərindən" keçirərək onun tərkibində olan parçalanma məhsullarını, toksinləri, şlakları, öldürülmüş və ya tam öldürülməmiş mikrobları təmizləyirlər.

Lakin bəzən böyrəklər xəstəlikləri və ya patologiyaları səbəbindən onların funksiyası pozulur və böyrəklər qanı yaxşı təmizləyə bilmir. Nəticədə orqanizmdə ziyanlı maddələrin konsentrasiyası təhlükəli səviyyəyə qalxır. Bu vəziyyət "böyrək çatışmazlığı" adlandırılır. Böyrək çatışmazlığı ona səbəb olan xəstəlikdən asılı olaraq kəskin və ya xroniki ola bilər. Əgər bu vəziyyətdə lazım olan müalicə tədbirləri görülməzsə, insan həlak ola bilər.

Həm kəskin, həm də xroniki böyrək çatışmazlığı zamanı ən geniş istifadə olunan müalicə metodlardan biri hemodializdir. Bu termin iki yunan sözündən əmələ gəlib - "haemo" (qan) və "dialisis" (ayırma). Hemodializ - xüsusi "süni böyrək" aparatın köməyi ilə qanın effektli şəkildə təmizlənməsidir. Hemodializ zamanı xəstənin qanı bütün burada yığılan toksiki maddələrdən, duzlardan, artıq mayedən azad olur.

Prosedura zamanı "süni böyrək" aparatı xəstənin ayağında və ya qolunda olan damarına birləşdirilir. Daha sonra qan hissə-hissə xüsusi borucuqlar vasitəsilə dializatora daxil olur, burada toksiki maddələrdən təmizlənir və sonra digər borucuqlarla orqanizmə qaytarılır.

Prosedura xəstəxana şəraitində həyata keçirilir və xəstənin vəziyyətindən, çəkisindən, hemodializ aparatın növündən asılı olaraq 4-5 saata kimi davam edir.

Bəzi böyrək xəstəlikləri nəticəsində insanın böyrəkləri öz funksiyasının tam itirir və bu halda insan ömrünün sonuna kimi hemodializdən asılı olur.

Xroniki böyrək çatışmazlığı olan insanlarda bu prosedura bir çox hallarda həftədə 3-4 dəfə həyata keçirilir. Prosedura zamanı xəstə daim tibbi heyətin nəzarəti altında qalır. Xəstənin vəziyyətində hər hansı pozulma inkişaf etdikdə, tibbi personal ona lazım olan yardım edir. Prosedura zamanı xəstə yata, danışa, kitab oxuya, televizor baxa bilər.

Daim hemodializdən keçən xəstə müəyyən pəhriz saxlamalı (bunu həkim təyin edir) və mayenin qəbulunu minimuma çatdırmalıdır.

**Böyrək çatışmazlığından əlavə, hemodializ bu kimi hallarda istifadə oluna bilər:**

- spirtlə güclü intoksikasiya zamanı,
- qanın elektrolit tərkibinin ciddi pozulmaları zamanı,
- dərman preparatların həddən artıq miqdarda qəbul etməsi zamanı,
- zəhərlənmələr zamanı və s.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 172